# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 328** **Bakı şəhəri, 5 sentyabr 2020-ci il**

***“Güzəştlərin tətbiqi Qaydasının və bölünən hissələrin məbləğinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 75-VIQD nömrəli Qanununun tətbiqi, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 668 nömrəli Fərmanında dəyişiklik edilməsi və dərman vasitələri istehsalının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 may tarixli 1040 nömrəli Fərmanının 1.2-ci bəndinin icrası məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 648; 2016, № 7, maddə 1364; 2019, № 4, maddə 746, № 7, maddə 1334) ilə təsdiq edilmiş “Güzəştlərin tətbiqi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissəyə “(işlər və xidmətlər)” sözlərindən sonra “, o cümlədən Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən istehsal prosesinin hər hansı mərhələsi Azərbaycan Respublikasının ərazisində həyata keçirilən mallar” sözləri əlavə edilsin.

**2.** 5-ci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Dərman vasitələrinin istehsal prosesinin qablaşdırma mərhələsi ilə bağlı tender təklifində isə Azərbaycan Respublikası Prezidentinin fərmanının nömrə və tarixi qeyd edilir və belə fəaliyyətlə məşğul olmaq üçün verilmiş lisenziyanın surəti tender təklifinə əlavə edilir.”.

**3.** 9-cu hissənin birinci cümləsində “4-cü hissəsində” sözləri “4-cü və 5-ci hissələrində” sözləri ilə əvəz edilsin.

**4.** Bu Qərarın 2-ci və 3-cü hissələri 2020-ci il iyunun 1-dən 5 (beş) il müddətinədək qüvvədədir.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq qəzeti.- 2020.- 9 sentyabr.- S.3.